***Azərbaycan son illərdə ordu quruculuğu sahəsində böyük uğurlar qazanıb. Ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə 1993-cü ildən etibarən başlanmış nizami ordu quruculuğu prosesi 2020-ci ilin noyabrında Prezident İlham Əliyevin rəhbərliyi ilə Ermənistan ordusunun darmadağın edilərək torpaqlarımızdan qovulması ilə başa çatıb. Təbii ki, ərazilərimizin böyük hissəsinin 30 ildən bəri Ermənistanın işğalı altında olması ölkəmizi Silahlı Qüvvələrimizi ciddi şəkildə möhkəmləndirməyə vadar edib. Ordumuz bu illər ərzində ən müasir silahlarla təchiz edilib, ən peşəkar səviyyədə hərbi təlimlərdə bərkiyib. Nəhayət, XXI əsrin müharibəsini böyük rəşadətlə başa vurub, dünyanın ən yaxşı orduları sırasında özünə yer tutub.***

# Azərbaycan Ordusunun adı dünyanın ən güclü orduları sırasında çəkilir



Elə bu ilin iyununda Azərbaycan ictimaiyyətinin Silahlı Qüvvələr Gününü böyük iftixar hissi ilə qeyd etməsi də təsadüfi olmayıb. Biz Qalib, Müzəffər Ordumuzun ad gününü yalnız bu cür təntənəli şəkildə qeyd etməli idik. Ona görə də bu dəfəki tədbirlər əsl bayram səviyyəsində keçirildi. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev də bu dəfəki Silahlı Qüvvələr gününün xüsusi qürur hissi ilə, müzəffər ordu kimi, qalib xalq kimi qeyd edildiyini vurğuladı. Bu da təsadüfi deyildi. Çünki Azərbaycan Ordusu İkinci Qarabağ müharibəsində çox qısa müddətdə – cəmi 44 gün ərzində, ən müasir hərbi texnikalar vasitəsilə XXI əsrin müharibəsini apararaq, Ermənistan ordusu üzərində tarixi qələbə qazanıb, 30 ilə yaxın işğal altında inləmiş doğma torpaqlarımızı azad edib, düşmən ordusunu, demək olar ki, tamamilə məhv edib.



Prezident İlham Əliyev iyunun 26-da Silahlı Qüvvələr Günü münasibətilə "Gülüstan" sarayında Azərbaycan Ordusunun rəhbər və şəxsi heyətinin bir qrupu ilə görüşündə söylədiyi nitqində vurğulayırdı ki, Azərbaycan xalqının bu günü böyük təntənə ilə qeyd etməyə tam haqqı var. Çünki uzun illər davam edən danışıqlar nəticə vermədikdə ordumuz ölkəmizin ərazi bütövlüyünü, tarixi ədaləti döyüş meydanında təmin edib.

Azərbaycan lideri haqlı olaraq bildirirdi ki, ölkəmiz İkinci Qarabağ müharibəsinə hərtərəfli hazırlaşıb. İlk növbədə, beynəlxalq müstəvidə uğurlar qazanılıb. Son illərdə aparıcı beynəlxalq təşkilatlar Azərbaycanın mövqeyini dəstəkləyən qərar və qətnamələr qəbul ediblər. Bu, münaqişənin həlli üçün əsas amillərdən biri olub. Çünki Azərbaycan dünyanın aparıcı güclərinə sübut etməli idi ki, beynəlxalq hüquq bizim tərəfimizdədir.

Prezident deyirdi: "Biz sübut etməli idik ki, Dağlıq Qarabağ əzəli Azərbaycan torpağıdır... Çünki Ermənistan, onun xaricdəki havadarları, erməni lobbisi vəziyyətlə bağlı tam təhrif edilmiş mənzərə ortaya qoyurdular… Ona görə beynəlxalq müstəvidə real həqiqətləri dünya ictimaiyyətinə çatdırmaq, mötəbər beynəlxalq təşkilatların qərarlarını qəbul etdirmək bizim üçün başlıca vəzifə idi. Belə də oldu. Aparıcı beynəlxalq təşkilatlar – BMT, Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı, hətta daim bizə qarşı ədalətsiz mövqe sərgiləyən Avropa Parlamenti, Avropa Şurası məcbur olub həqiqəti əks etdirən, bizim maraqlarımıza cavab verən qərar və qətnamələr qəbul etmişlər".

Azərbaycan ikitərəfli formatda da əlaqələrini gücləndirib. Nəticədə son illər ərzində ölkəmizin dostlarının sayı kifayət qədər artıb. Məhz Prezident İlham Əliyevin yorulmaz fəaliyyəti nəticəsində bütövlükdə dünyada Vətən müharibəmizlə bağlı tam konkret və həqiqəti əks etdirən təsəvvür formalaşıb. İkitərəfli formatda bir çox ölkələrlə bərabərhüquqlu və qarşılıqlı maraqlar üzərində qurulmuş münasibətlər bizim gücümüzü artırıb. Qardaş Türkiyə başda olmaqla Pakistan, Əfqanıstan və digər ölkələr, eyni zamanda, İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı müharibənin ilk saatlarından bizə öz dəstəyini göstərib.

Prezident İlham Əliyev mütəmadi olaraq bəyan edirdi ki, Azərbaycanın ərazi bütövlüyü bərpa edilməlidir: "Deyirdim ki, müharibə variantı heç vaxt istisna olunmur. Nəinki deyirdim, bütün bu illər ərzində gücümüzü səfərbər edib ölkəmizi gücləndirirdik, güc toplayırdıq - həm beynəlxalq müstəvidə, həm ölkə daxilində, həm iqtisadi məsələlərin həllində, ölkəmizdə həmrəyliyin və birliyin möhkəmlənməsində, ordu quruculuğunda güc toplayırdıq. Bu gücü dəmir yumruq formasına gətirdik, düşmənin belini qırdıq və bu gün biz yeni reallıq yaratdıq. Əgər hətta bir il bundan əvvəl bəziləri bizə deyirdilərsə ki, siz mövcud olan reallıqla barışın, bu gün mən deyirəm, hər kəs mövcud reallıqla barışmalıdır".

Prezident İlham Əliyev bu günlərdə Füzuli, Cəbrayıl, Zəngilan və Qubadlı rayonlarına səfəri zamanı da bəyan edib ki, biz bütün dünyaya xalqımızın, dövlətimizin qüdrətini göstərdik, xalqımızın əyilməz ruhunu göstərdik. Dövlət başçısı bu gün Ermənistanda baş qaldırmaq istəyən revanşist qüvvələrə də mesajını çatdırıb: biz heç vaxt imkan verə bilmərik ki, erməni faşizmi bir daha başını qaldırsın. Biz Ermənistan ordusunu, demək olar ki, məhv etmişik: "Ermənistan ordusu yoxdur, dağılıb. Həm texnika dağılıb, həm canlı qüvvə dağılıb. Özləri etiraf edirlər ki, müharibə zamanı onların 10 min fərarisi olubdur. Azərbaycan Ordusunda bir dənə də fərari olmayıbdır. Bu, xalqımızın, ordumuzun yüksək mənəvi ruhunun təzahürüdür. Aparılan siyasətin təzahürüdür. Biz döyüş meydanında Qələbə qazandıq. Biz bu torpaqları vuruşaraq işğalçılardan azad etmişik. Ermənistanı məğlub edib məcbur etdik ki, noyabrın 10-da kapitulyasiya aktına imza atsın və Laçın, Kəlbəcər, Ağdam rayonlarını məcbur olub bizə qaytarsın".

Müzəffər ordumuzun Xocavənd rayonundan Şuşaya gedərək, dağlardan, dərələrdən keçərək uğurlu əməliyyat aparması haqqında danışan Azərbaycan lideri bildirib ki, ölkədə ordu quruculuğu həmişə bir nömrəli məsələ olub. Məhz güclü və rəşadətli ordu yaradılması nəticəsində torpaqlarımız azad olunub, tarixi ədalət bərpa edilib. Məhz buna görədir ki, Azərbaycan Ordusunun adı bu gün dünyanın ən güclü orduları sırasında çəkilir. Əminik ki, gələcəkdə belə olacaq.

Ali Baş Komandan Ermənistana xəbərdarlıq etməyi də unutmayıb. Bildirib ki, biz şəhidlərimizi, dağıdılmış şəhər və kəndlərimizi, təhqir olunmuş məscidlərimizi, günahsız insanlarımıza ermənilər tərəfindən verilmiş zülmləri unutmamışıq. Biz Birinci və İkinci Qarabağ müharibələri şəhidlərinin qisasını döyüş meydanında aldıq: "Ermənistan dərk etməlidir ki, Azərbaycan bundan sonra da güclənəcək və bu, şübhəsizdir. O cümlədən, bizim hərbi gücümüz artacaq… Ermənistanın isə, əgər onlar yenə də bizə qarşı düşmənçilik siyasətindən əl çəkməsələr, nəinki hərbi gücünü, nəinki dağılmış, məhv edilmiş ordusunu bərpa etmək imkanı olmayacaq, eyni zamanda, iqtisadi fəallığı bərpa etmək imkanları da çox məhduddur".

Prezident İlham Əliyev Vətən müharibəsindən sonra döyüş meydanında qəhrəmanlıqlar göstərmiş hərbçilərimizi Azərbaycanın ən yüksək mükafatları ilə təltif edib. Eyni zamanda, tarixi qələbəmiz münasibətilə keçən il dekabrın 10-da Bakıdakı Azadlıq meydanında hərbi parad keçirilib. Paradda Prezident İlham Əliyevlə yanaşı, qardaş Türkiyənin dövlət başçısı Rəcəb Tayyib Ərdoğan da iştirak edib. Bir daha əmin olduq ki, Azərbaycan özünün ədalətli mübarizəsində tək deyil, qardaş Türkiyə yenilməz ordusu və siyasi dəstəyi ilə həmişə yanımızdadır.

***Paşa ƏMİRCANOV,***
***"Xalq qəzeti"***